


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 198 (23.610)

17 noyabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.



## Muxtar respublikanın torpaq və su ehtiyatlarından səmərəli istifadə edilir

# Kəngərli rayonunda yeni qapalı suvarma şəbəkəsi qurulub





Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Azərbaycanın kənd təsərrüfatı potensialı – torpaqlarımız, hava, su kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, bundan səmərəli istifadə olunmalıdır".***

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılır. Muxtar respublikada torpaq ehtiyatlarından düzgün istifadə olunur, meliorativ tədbirlərin həcmi genişləndirilir, mütərəqqi suvarma şəbəkələri qurularaq istifadəyə verilir. Naxçıvanda torpaq və su ehtiyatları kompleks şəkildə əkinçiliyin inkişafına yönəldilir. Uzun müddət suvarılmayan torpaq sahələrindən bol məhsul götürülür, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılır. Son illər muxtar respublikanın Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında dövlət vəsaiti hesabına 5 min hektardan artıq qapalı suvarma şəbəkələri qurularaq sakinlərin istifadəsinə verilmişdir.

Noyabrın 16-da Kəngərli rayonunun Böyükdüz kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 810 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi yerli mütəxəssislər tərəfindən qısa müddətdə və keyfiyyətlə aparılmışdır. Su sahələrə Araz Su Anbarından qidalanan nasos stansiyası vasitəsilə vurulur və öz axını ilə şəbəkəyə ötürülür. Ərazidə 6100 metr ana xətt, uzunluğu 79 min 287 metr olan paylayıcı suvarma şəbəkəsi çəkilmiş, 763 hidrant və 3 istiqamətdə çıxışı olan dəmir-beton hovuzlar quraşdırılmışdır. Boru xəttinin deformasiyasına qarşı 15 temperatur kompensatoru quraşdırılmışdır. Suyun sahəyə növbə ilə verilməsini təmin etmək üçün xətlərin üzərində 131 siyirtmə qoyulmuşdur. Həmçinin bildirilmişdir ki, Kəngərli rayonu ərazisində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 339 hektar sahədə də yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır. Ərazidə 40 kilometrə yaxın boru xətti çəkiləcək, 251 hidrant qoyulacaq, drenaj və kollektorlar quraşdırılacaqdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Yeraltı şəbəkənin qurulması ərazidəki torpaqların əkin dövriyyəsinə qatılmasını təmin etmişdir. Kəngərli rayonunda işlərə 2015-ci ildən başlanılmış və 2 min hektara yaxın ərazidə qapalı suvarma şəbəkəsi qurulub istifadəyə verilmişdir. Torpaqların əkin dövriyyəsinə qatılması muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfədir. Eyni zamanda yeni iş yerləri açılır, ailələrin yaşayışı yaxşılaşır, ən əsası isə muxtar respublikada məhsul bolluğu yaradılır. Görülən işlər yalnız "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin deyil, həm də bələdiyyə və dövlət mülkiyyətinə aid olan torpaqların da su təminatını yaxşılaşdıracaqdır. 810 hektarın 574-ü "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin, 46 hektarı bələdiyyə, 190 hektarı isə dövlət mülkiyyətinə məxsus torpaqlardır. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar da icarəyə götürülərək əkiləcəkdir. Artıq bu torpaqların bir hissəsində əkin işləri aparılır. Həmçinin ərazinin davamlı su təminatını yaxşılaşdırmaq üçün Araz çayı üzərində müasir nasos stansiyası tikilir. Həmin nasos stansiyası istifadəyə verildikdən sonra əlavə 1000 hektara yaxın torpaq sahəsi də əkin dövriyyəsinə qatılacaqdır.

Ali Məclisin Sədri demişdir: Su təminatı, əkinəyararlı və bərəkətli torpaqlar olan yerdə inkişaf təmin olunur və ərzaq bolluğu yaranır. Çünki ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əgər bu sahədə işlər düzgün qurularsa, o zaman iqtisadiyyat da inkişaf edəcəkdir. İqtisadiyyatın lokomotivi isə kənd təsərrüfatıdır. Ona görə aqrar sahənin inkişafı daim diqqət mərkəzindədir. Hər il qurulan qapalı suvarma sistemləri, nasos stansiyaları, eləcə də müxtəlif suvarma metodlarından – damcı və çiləmə üsullarından istifadə muxtar respublikada müasir suvarma şəbəkələrinin yaradılmasına imkan vermişdir. Müasir suvarma şəbəkələri məhsuldarlığın və gəlirlərin artması, torpaqların şoranlaşmasının qarşısının alınması və yeni iş yerlərinin yaradılması deməkdir. Torpaqların əkin dövriyyəsinə qatılması ailə təsərrüfatlarının inkişafına da böyük dəstək verəcəkdir.

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisinin yerli mütəxəssislər tərəfindən keyfiyyətlə aparıldığını bildirmiş, bu işdə əməyi olanlara təşəkkür etmişdir.

Böyükdüz kənd sakini Qılman Əhmədov göstərilən qayğıya görə sakinlər adından Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: "Bu gün qədim diyarımızın bütün bölgələri abadlaşır, yeni məktəblər, sosial obyektlər tikilərək sakinlərin istifadəsinə verilir. Ordu quruculuğuna muxtar respublikada göstərilən diqqət və qayğının nəticəsidir ki, Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi naxçıvanlılar Vətən müharibəsində böyük qəhrəmanlıq və şücaət göstərmişlər. Bu, çox qürurvericidir. Mən kənd sakinləri adından Ali Məclisin Sədrini qələbə münasibətilə təbrik edirəm. Kəngərli də yarandığı dövrdən böyük inkişaf yolu keçmişdir. Qısa zamanda rayonun bütün kəndləri abadlaşdırılıb, yollar salınıb. İnsanların rahat yaşayışı təmin edilib. Kəngərli rayonu aqrar bölgə olduğundan burada kənd təsərrüfatının inkişafı daim diqqətdə

Ardı 2-ci səhifədə



saxlanılıb. Torpaqların su təminatının yaxşılaşdırılması, xüsusilə istifadəyə verilən qapalı suvarma şəbəkələri Böyükdüz, Xok və Yurdçu kəndlərində əkinçiliyin inkişafına səbəb olmuşdur. Böyükdüz kəndinin sakinləri, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olurlar. Əvvəllər yem ehtiyatını qonşu kəndlərin hesabına təmin edirdik. Lakin torpaqların su təminatının yaxşılaşdırılması əkin sahələrinin genişləndirilməsi ilə yanaşı, bol yem ehtiyatı da yaratmışdır".

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisində iştirak edənləri hədiyyələrlə mükafatlandırmışdır.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsini işə salmışdır.

Ali Məclisin Sədri ərazidə qoruyucu yaşıllıq zolaqlarının salınması, qapalı suvarma şəbəkələri tikilərkən kollektor və drenaj sistemlərinin qurulmasına diqqət yetirilməsi, Tivi və Külüs kəndlərində yeni qapalı suvarma şəbəkələrinin layihələrinin hazırlanması barədə tapşırıqlar vermişdir.

* * *

Muxtar respublikada torpaqlarımız qorunmaqla yanaşı, həm də əkilir. Çünki ordu ölkənin müdafiə təhlükəsizliyini, kənd təsərrüfatı isə iqtisadi təhlükəsizliyini təmin edir. Hazırda Naxçıvan Muxtar Respublikasında yerli istehsalın həcminin artması, daxili tələbatın ödənilməsi və kənd təsərrüfatı məhsullarının ixrac potensialının yaradılması son 25 ildə həyata keçirilən aqrar islahatların bəhrəsidir. Böyükdüz kəndinin torpaq sahələri də uzun müddət əkin dövriyyəsindən kənarda qalmışdı. Lakin 2015-2020-ci illərdə kəndin torpaqlarında 2 min hektara yaxın qapalı suvarma şəbəkəsi tikilmiş, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün əkin sahəsi ayrılmışdır. Vaxtilə əkilməyən bu torpaqlar hazırda muxtar respublikanın toxuma olan tələbatını ödəyir. Eyni zamanda kənd sakinləri bol məhsul istehsal edirlər. Bütün bunlar isə iqtisadi inkişafın mühüm göstəricisi olmaqla yanaşı, həm də torpağa sahiblik və bağlılıq nümunəsidir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# 1990-cı il noyabrın 17-də Naxçıvanda Azərbaycan Dövlət Bayrağı qaldırılıb

Azərbaycan Xalq Cümhuriyyətinin atributu olan üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ulu öndər Heydər Əliyevin tarixi xidmətləri ilə bağlıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı ilin iyulunda Naxçıvana qayıdışı və bu qədim Azərbaycan diyarında milli dövlətçiliyimizin bərpası istiqamətində atdığı tarixi addımlar, nəinki Naxçıvanı, bütövlükdə, Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. Ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli bir dövrdə Naxçıvana rəhbərlik edən dahi lider Heydər Əliyevin milli dövlət quruculuğu sahəsində qəbul etdiyi mühüm qərarlar Naxçıvanda milli dirçəlişin əsasını qoymaqla Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi gələcək fəaliyyətinin siyasi və ideoloji əsaslarını müəyyən etdi. Bu dövrdə xalqda milli özünüdərki gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar atıldı. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində bir çox məsələlər müzakirə olundu, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edildi. "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin öz əli ilə yazdığı Ali Məclisin Qərarında deyilirdi:

Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.*

Həmin gün Azərbaycanın üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvanda dalğalandırıldı, dövlət atributlarımızla bağlı çox mühüm qərarlar qəbul edildi. Hələ kommunist partiyasının hökm sürdüyü bir dövrdə böyük cəsarətlə qəbul edilmiş həmin qərarlar Azərbaycanın müstəqillik yoluna işıq saldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda Dövlət Bayrağı kimi təsdiq edildi... Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının Dövlət Bayrağı kimi qəbul olunması Azərbaycanın müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir".***



1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qanun qəbul olunmuşdur. Böyük dövlət xadimi Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Dövlət Bayrağı da milli suverenliyin simvolu kimi təsdiq olundu, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edildi. Ulu öndərimizin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında üçrəngli bayrağımız dövlət rəmzi kimi təsbit edilib. Burada göstərilir ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Bayrağımızdakı mavi rəng Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng İslam sivilizasiyasına mənsubluğunu ifadə edir.

Ümummilli lider demişdir: ***"Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".***

Görkəmli dövlət xadiminin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Dövlət başçısının 2007-ci il 17 noyabr tarixli Sərəncamına əsasən isə Bakı şəhərində Dövlət Bayrağı Meydanı yaradılıb. "Ginnes" dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycanın Dövlət Bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkəmizin əksər bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılıb. Belə Bayraq meydanlarından biri də dövlət atributlarımıza sevgi və hörmətin göstəricisi kimi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasındadır. Muxtar respublikamızda dövlət rəmzlərinin qorunması, yaşadılması və təbliğinə böyük diqqət göstərilir, dövlət rəmzlərimiz və atributlarımız daim uca tutulur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilib. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Sərəncam imzalayıb. Sərəncama əsasən hər il noyabr ayının 17-si Azərbaycan Dövlət Bayrağının Naxçıvanda Qaldırıldığı Gün kimi qeyd edilir. Naxçıvan şəhərindəki Bayraq Meydanında unikal quruluşa malik Bayraq Muzeyi yaradılıb. Dövlət Bayrağı Muzeyi Naxçıvan şəhərinin ən hündür ərazisində yerləşir. Bayraq dirəyinin ətrafında yaradılmış muzey səkkizguşəlidir. Meydanda dalğalanan Dövlət Bayrağının uzunluğu 20 metr, eni 10 metr, bayraq dirəyinin hündürlüyü isə 57 metrdir. Muzeydə nümayiş olunan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər, tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları dövlətçilik tariximizi, Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə geniş imkanlar yaradır, gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işində mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır".***

Bu gün üçrəngli bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır. Qürurvericidir ki, illər öncə cənab Prezidentimizin dediyi ***"Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq"*** ifadələri bu gün real həyatda təsdiqini tapıb. Bir aydan çox idi dövlətimizin ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızın azad olunması uğrunda başlanan Vətən müharibəsindən qalib çıxan, zəfər çalan Azərbaycan oldu. Müzəffər Ordumuzun cəsarəti, peşəkarlığı, Ali Baş Komandanımızın qətiyyətli iradəsi sayəsində Qələbə qazandıq. İndi əzəmətli Azərbaycan bayrağı əzəli, qədim torpaqlarımız olan Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Hadrutda, Suqovuşanda, Şuşada, digər kənd və qəsəbələrimizdə xalqımızın tarixi birlik və qəhrəmanlıq simvolu olan Xudafərin körpüsü üzərində qürurla dalğalanmaqdadır. Vətənimizin bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin, qəhrəman oğullarımızın sayəsində ucalan zəfər bayrağımız əbədidir.

**"Şərq qapısı"**



## "Bayraq mənliyimdir!" adlı aksiya keçirilib

*Naxçıvan şəhərində "Bayraq mənliyimdir!" adlı aksiya keçirilib.*

Aksiyada 25 könüllü gənc iştirak edib. Əlamətdar tarixi günün qeyd edilməsi, gənclərin Azərbaycan Ordusuna mənəvi dəstəyinin nümayişi, onların vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin yüksəldilməsi, könüllü gənclərin fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən aksiyada istedadlı gənclər tərəfindən vətənpərvərlik mahnıları və şeirlər səsləndirilib, könüllülər sakinlərə bayraqlar hədiyyə ediblər.

Layihə çərçivəsində keçirilən "Əsgərə məktub" aksiyasında isə gənclər, eləcə də muxtar respublika sakinləri tərəfindən şanlı Azərbaycan Ordusunun əsgərlərinə məktublar yazılıb.

Qeyd edək ki, 30 il əvvəl ilk dəfə qədim Naxçıvan torpağında səmaya qaldırılan, milli suverenliyimizin simvolu, müqəddəs dövlətçilik rəmzlərindən sayılan bayrağımız indi işğaldan azad olunan torpaqlarımızda dalğalanır.

**Xəbərlər şöbəsi**

## Tabora yeni avtomobillər verilib



Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələri kimi, böyük təşkilatlanma və inkişaf yolu keçib. Belə ki, 1995-ci il aprelin 10-da Daxili Qoşunların Naxçıvan Taboru yaradılıb, 2002-ci ildə tabor alaya, 2014-cü ildə isə Əlahiddə Əməliyyat Briqadasına çevrilib. Ötən dövrdə briqadada qarşıya qoyulan vəzifələrin icrasında və ictimai asayişin qorunmasında xidməti təcrübə toplanılıb, hərbi qulluqçuların döyüş hazırlığı artırılıb. Şəxsi heyətin xidmət və məişət şəraiti yaxşılaşdırılıb, maddi-texniki baza möhkəmləndirilib, Naxçıvan şəhərində briqada üçün müasir hərbi şəhərcik istifadəyə verilib. Bu il oktyabr ayının 16-da isə briqadanın Şərur Əməliyyat Taboru üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Açılış mərasimində çıxış edən Ali Məclisin Sədri deyib: ***"...Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının şəxsi heyəti də muxtar respublikamızda sabitliyi qorumalı, eyni zamanda Naxçıvan Qarnizonu üzrə keçirilən təlimlərdə iştirak etməli, döyüş hazırlığını artırmalıdır. Hərbi qulluqçular vəzifə borclarını dərindən öyrənməli, silah və texnikalardan istifadə imkanlarını yaxşı mənimsəməli, muxtar respublikanın müdafiəsinə hazır olmalıdırlar. Hərbi xidmətin əsasında intizam dayanır. Şəxsi heyət daxili nizam qaydalarına ciddi əməl etməli, qarşıya qoyulan vəzifə və tapşırıqlar uğurla yerinə yetirilməlidir".***

Qeyd edək ki, ötən müddət ərzində tabor davamlı dövlət qayğısını öz üzərində hiss edərək qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə səy göstərib. Dünən tabora yeni avtomobillərin təqdim edilməsi münasibətilə keçirilən tədbirdə bu barədə geniş danışılıb. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov ordumuzun erməni vandalları üzərində qazandığı qələbə və 17 noyabr – Azərbaycan Dövlət Bayrağının Naxçıvanda Qaldırıldığı Gün münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirilib ki, blokada şəraitində yaşamasına baxmayaraq, ulu öndərimiz Heydər Əliyevin ideyalarına söykənərək inkişaf etməkdə olan muxtar respublikamızda hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Silahlı Qüvvələrin digər birləşmə və bölmələri kimi, Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş hazırlığının yüksəldilməsi daim diqqətdə saxlanılıb, hərbi hissələrin maddi-texniki bazası ilbəil gücləndirilərək müasirtipli silah-sursat və nəqliyyat vasitələri ilə təchiz olunub. Ali Məclis Sədrinin tapşırıq və tövsiyələri əsasında briqadanın fəaliyyətinin təşkili və idarə olunması istiqamətində məqsədyönlü tədbirlər görülərək, təşkilati-ştat strukturu mövcud əməliyyat şəraitinə uyğun yenidən komplektləşdirilib, hərbi hissələrin yerləşdiyi ərazidə geniş quruculuq işləri aparılaraq müasir infrastruktur və nümunəvi hərbi şəhərcik yaradılıb.



Fazil Ələkbərov ordumuzun qazandığı qələbədə şəhidlik zirvəsinə ucalmış eloğullarımızın şücaətindən danışıb, qazilərə sağlamlıq arzulayıb. Bildirib ki, bu gün bütün hərbçilərimizdə yüksək vətənpərvərlik ruhu var. Onlar istənilən vaxt hər hansı əməliyyatı yerinə yetirməyə qadirdirlər. Elə Qarabağda gedən döyüşlər zamanı – oktyabr ayının 16-da bu tabor üçün kompleksin istifadəyə verilməsi də o demək idi ki, dövlətimiz ordumuz üçün nə lazımdırsa edir. Bu həm də ölkəmizin sosial-iqtisadi inkişafının göstəricisidir.

Nazir verilən yeni texnikalardan səmərəli istifadə olunacağına əminliyini bildirib və yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib.

Hərbi hissənin zabiti Məmməd Yusifov və gizir Sadiq Məmmədov onlara göstərilən qayğıya öz vəzifə borclarını yüksək səviyyədə yerinə yetirməklə cavab verəcəklərini bildiriblər.

Sonra yeni avtomobillərə baxış olub. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən hədiyyə olunmuş bir "URAL", bir "Zil-131" və iki "Mitsubuishi L-200" markalı avtomobillər öz modernliyi və keyfiyyəti ilə seçilir.

Fazil Ələkbərov şəxsi heyətə gələcək qulluq və xidmətdə uğurlar arzulayıb.

✍ **Muxtar MƏMMƏDOV**

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsində çalışan işçilərin attestasiyası üzrə test imtahanı keçirilib. İmtahan gömrük orqanları əməkdaşlarının peşəkarlığı, işgüzarlıq və mənəvi keyfiyyətlərinin obyektiv qiymətləndirilməsi, onların tutduğu vəzifəyə uyğunluğunun müəyyənləşdirilməsi və gələcək inkişafının təmin edilməsi məqsədilə təşkil olunub.*

## Test imtahanı keçirilib



İmtahan Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test Mərkəzində elektron proqram təminatı vasitəsilə keçirilib. Obyektivliyin və şəffaflığın gözlənilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb və Dövlət Gömrük Komitəsinin əməkdaşlarının müşahidəçi qismində iştirakları təmin olunub.

Test imtahanında iştirak etmiş 48 nəfərdən 34-ü müvafiq keçid balını toplayaraq attestasiyadan müvəffəqiyyətlə keçib. İmtahan qurtardıqdan dərhal sonra iştirakçılara nəticəyə dair arayış təqdim edilib.

Bundan başqa, 18 noyabr tarixdə Ədliyyə Nazirliyinin, 20-30 noyabr tarixlərdə dövlət musiqi təhsili müəssisələrinin, 2 dekabr tarixdə isə Dövlət Miqrasiya Xidməti əməkdaşlarının attestasiyası keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Tələbələr üçün elmi-praktik seminar

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunda Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülən Kimya ixtisasının III kurs tələbələrinin iştirakı ilə elmi-praktik seminar keçirilib.

Tədbirdə institutun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayev "Kimyəvi tədqiqatlarda müasir metodların tətbiqi məsələləri" mövzusunda məruzə ilə çıxış edib. Alim tələbələrə müasir tədqiqat sahəsi – nanotexnologiyadan, nanobirləşmələrin alınma metodlarından, onların tədqiq və tətbiqindən ətraflı danışıb.

Əhməd Qarayev hazırda dünyanın bir çox ölkələrində bu texnologiyanın böyük imkanlarından istifadə edərək uğurlu nailiyyətlər qazanıldığını söyləyərək tələbələrin diqqətinə çatdırıb ki, institutun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasında da bu sahədə müəyyən tədqiqatlar aparılır. Təcrübələr nəticəsində alınan Nano və mikrohissəciklər laboratoriyada quraşdırılan Yaponiya istehsalı olan TM-3000 elektron mikroskopunda tədqiq edilir.

Sonra tələbələr TM-3000 elektron mikroskop ilə yaxından tanış olublar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Ahıl və yataq xəstələri tibbi müayinə olunub

Naxçıvan Muxtar Respublika Xəstəxanasının 24 nəfərdən ibarət həkim briqadası tərəfindən Şahbuz rayonunun Ayrınc, Qızıl Qışlaq, Kolanı və Kükü kəndlərində müayinələr aparılıb. Tibbi aksiyada müxtəlif ixtisas həkimləri iştirak ediblər.

Xəstəxanaya gələ bilməyən ahıl və yataqda olan 30 xəstəyə evlərində tibbi xidmət göstərilib. Gün ərzində laborator təhlillər aparılıb, ultrasəs müayinəsi keçirilib. Xəstələrə ilkin tibbi yardım üçün istifadə olunan zəruri dərmanlar verilib.

Ahıl və yataq xəstələri başqa yerlərə getmədən, ev şəraitində müayinə olunduqlarına görə minnətdarlıq edib, bütün bunları əhalinin sağlamlığının qorunmasına yönəldilmiş təşəbbüslərin uğurlu icrası kimi dəyərləndiriblər.

Qeyd edək ki, humanitar tibbi aksiya muxtar respublikanın digər rayonlarında da həyata keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 17 noyabr-2 dekabr 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın *(036) 545-65-71* nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | | |
| 6910314 | 3 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6910318 | 3 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6910312 | 3 №-li tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6911014 | 10 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| **Cəmi:** | | **4 yer** | | | |
| **Şərur rayonu üzrə:** | | | | | |
| 6900421 | Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 13 | |
| 6920920 | Axura kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925711 | Aşağı Yaycı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6925713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925720 | Aşağı Yaycı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6921521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922309 | Gümüşlü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922310 | Gümüşlü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922522 | Həmzəli kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924922 | Xanlıqlar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925022 | Xələc kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922707 | Kərimbəyli kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6922910 | Kürçülü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923713 | Qarabürc kənd ümumi orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923709 | Qarabürc kənd ümumi orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923718 | Qarabürc kənd ümumi orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923213 | Maxta kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923616 | Püsyan kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6924220 | Siyaqut kənd tam orta məktəbi | İngilis dili | 1 | 15 | |
| 6924413 | Şəhriyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924713 | Tumaslı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924710 | Tumaslı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6924822 | Vərməziyar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6924812 | Vərməziyar kənd tam orta məktəbi | Tarix | 1 | 17 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925313 | Yeni Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925308 | Yeni Havuş kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6925413 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925507 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 15 | ** |
| 6925518 | Yuxarı Yaycı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 15 | ** |
| 6925508 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| Cəmi: | | 41 yer | | | |
| Babək rayonu üzrə: | | | | | |
| 6930922 | Gərməçataq kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6930912 | Gərməçataq kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6931022 | Göynük kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6931222 | Güznüt kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931213 | Güznüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931513 | Kültəpə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931512 | Kültəpə kənd tam orta məktəbi | Tarix | 1 | 19 | |
| 6932514 | Qahab kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6932521 | Qahab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931622 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931613 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931822 | Naxışnərgiz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931813 | Naxışnərgiz kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6932022 | Nəhəcir kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6932010 | Nəhəcir kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6933022 | Uzunoba kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6933114 | Vayxır kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 14 | |
| 6933511 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6933520 | Yuxarı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| Cəmi: | | 20 yer | | | |
| Ordubad rayonu üzrə: | | | | | |
| 6940122 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Alman dili | 1 | 12 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940711 | Baş Dizə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6940913 | Biləv kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6941009 | Bist kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941018 | Bist kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | ** |
| 6941020 | Bist kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6941122 | Çənnəb kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6941213 | Dəstə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6941209 | Dəstə kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6941218 | Dəstə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6941220 | Dəstə kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6941212 | Dəstə kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6941618 | Düylün kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942010 | Gilançay kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943413 | Xanağa kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6943519 | Xurs kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6943520 | Xurs kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6942110 | Kələki kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942212 | Kotam kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6942361 | Nəsirvaz kənd tam orta məktəbi | Biologiya-kimya | 1 | 15 | ** |
| 6942413 | Nürgüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942420 | Nürgüt kənd tam orta məktəbi | İngilis dili | 1 | 22 | ** |
| 6942509 | Nüsnüs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6942618 | Parağa kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6942610 | Parağa kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942612 | Parağa kənd tam orta məktəbi | Tarix | 1 | 18 | ** |
| 6942722 | Pəzməri kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943008 | Unus kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6943012 | Unus kənd tam orta məktəbi | Tarix | 1 | 18 | ** |
| 6943111 | Üstüpü kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6943220 | Vələver kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943311 | Vənənd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943608 | Yuxarı Əylis kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| Cəmi: | | 39 yer | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Culfa rayonu üzrə: | | | | | |
| 6950613 | Camaldın kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950922 | Əlincə kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6950909 | Əlincə kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6951413 | Gülüstan kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6952314 | Xanəgah kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6952120 | Şurud kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6952211 | Teyvaz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6952621 | Yaycı kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| Cəmi: | | 9 yer | | | |
| Kəngərli rayonu üzrə: | | | | | |
| 6970222 | Böyükdüz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6970913 | Xıncab kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6971016 | Xok kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6970411 | Qabıllı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970410 | Qabıllı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970621 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 18 | |
| 6970718 | Şahtaxtı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| Cəmi: | | 7 yer | | | |
| Şahbuz rayonu üzrə: | | | | | |
| 6960411 | Ağbulaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6960413 | Ağbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960513 | Ayrınc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960914 | Daylaqlı kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961010 | Gömür kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961110 | Güney Qışlaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961310 | Kolanı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961820 | Qızıl Qışlaq kənd tam orta məktəbi | İngilis dili | 1 | 26 | |
| 6961611 | Mahmudoba kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961613 | Mahmudoba kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962011 | Şada kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962107 | Şahbuzkənd kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962220 | Türkeş kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6962322 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| Cəmi: | | 26 yer | | | |
| Sədərək rayonu üzrə: | | | | | |
| 6980118 | Heydərabad qəsəbə tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980211 | Qaraağac kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6980209 | Qaraağac kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6980218 | Qaraağac kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980322 | Sədərək kənd 1 №-li tam orta məktəb | Alman dili | 1 | 14 | |
| 6980318 | Sədərək kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 3 | 42 | |
| 6980418 | Sədərək kənd 2 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| Cəmi: | | 10 yer | | | |
| YEKUN: | | 156 yer | | | |

(*) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## Naxçıvan Muxtar Respublikası üzrə 16 noyabr 2020-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1165 | 952 | 213 |
| 2. | Babək rayonu | 5584 | 3461 | 2123 |
| 3. | Ordubad rayonu | 429 | 62 | 367 |
| 4. | Culfa rayonu | 2201 | 1884 | 317 |
| 5. | Kəngərli rayonu | 3616 | 1876 | 1740 |
| 6. | Şahbuz rayonu | 633 | 615 | 18 |
| 7. | Sədərək rayonu | 775 | 252 | 523 |
| 8. | Naxçıvan şəhəri | 370 | 307 | 63 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **14773** | **9409** | **5364** |

### İtmişdir

Şərur rayonu, Kürkənddə yaşamış Məmmədova Gönüş Kərəm qızına məxsus JN-230 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 856